UOT: 332.1:338.24:R11; R12

Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru.
E-mail: emeherremov79@mail.ru
https://doi.org/10.30546/4.71.731.03.2026.55

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA AQRAR SAHƏNİN İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafının aktual problemlərinin araşdırılması və həlli yollarının müəyyənləşdirilməsidir. Postkonflikt ərazilərdə aqrar sektorun inkişaf problemləri açıqlanmış və sistemləşdirilmişdir. Ölkənin regional siyasətinin iqtisadi aspektləri və prioritetləri verilmişdir. Postkonflikt ərazilərdə aqrar sahənin inkişaf postulatları təhlil olunmuş və mövcud problemlərin həlli yolları üzrə polemika aparılmışdır.

Tədqiqatın metodologiyası kimi abstraksiya, analiz, sintez və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf problemləri üzrə tədqiqatlar aparmış bir qrup alimlərin elmi əsərləri diqqətdə saxlanılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti baxımından qeyd edək ki, ümumiləşdirilmiş yekun müddəalardan və nəticələrdən Qarabağ və Şərqi Zəngəzurda aqrar sektorun inkişaf problemlərinin həlli üzrə praktiki fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqində istifadə edilməsi ehtimalı yüksəkdir.

Tədqiqatın nəticələri baxımından hesab edirik ki, postkonflikt ərazilərdə aqrar sahənin inkişaf problemləri üzrə daha təsirli tədbirlərin hazırlanması və həyata keçirilməsində məqalədə verilmiş təkliflərdən istifadə etmək olar.

Tədqiqatın orijinallığı və elmi yeniliyi kimi ilk növbədə müasir dövrdə Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin daha intensiv inkişaf etdirilməsinin zəruriliyinin elmi-praktiki arqumentlərlə əsaslandırılmasıdır. Bu məqsədlə postkonflikt ərazilərdə mövcud olan resurs potensialı təhlil olunmuş və aqrar sahənin inkişafının sürətləndirilməsi imkanları qiymətləndirilmişdir. Aqrar sahənin yüksək texnologiyalar, o cümlədən “ağıllı” texnologiyalar əsasında inkişafının intensivləşdirilməsi istiqamətləri üzrə təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, Qarabağ, Şərqi Zəngəzur, iqtisadi rayonlar, aqrar sahə, aqrar sektorun inkişaf problemləri, aqrar sektorun inkişaf perspektivləri.

Giriş

Müasir dövrdə iqtisadiyyat sahələrinin inkişaf problemlərinin həll edilməsi kompleks və sistemli yanaşmanı şərtləndirir. Xüsusilə, regionların inkişaf etdirilməsi baxımından daha çox işlər görülməli və səylər göstərilməlidir. Hər bir ölkənin siyasətində regional problemlər mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu baxımdan istisna təşkil etmir. Son 25 il ərzində bununla bağlı xeyli işlər görülmüşdür və ardıcıl Dövlət Proqramları həyata keçirilmişdir. Tarixi vəzifələrdən biri kimi isə işğaldan azad olunmuş ərazilərin bərpa edilməsi və dirçəldilməsindən ibarətdir. Akademik Z.Ə.Səmədzadə bununla bağlı qeyd edir ki, Qarabağ və Şərqi Zəngəzurda infrastrukturun bərpası istiqamətində başlanan işlərin miqyası olduqca əhatəli və məzmunludur. Məqsəd işğaldan azad olunmuş şəhər və rayonlarımızın, kənd və qəsəbələrimizin bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışıdır. Amma, bu işlər həm də Azərbaycan dövlətinin iqtisadi gücündən, torpaqlarımızın bərpası istiqamətində Prezident İlham Əliyevin qətiyyətindən xəbər verir [10, s. 584]. Hazırda bu iqtisadi rayonlarda bərpa işləri intensiv şəkildə gedir və xüsusilə keçmiş məcburi köçkünlərin fəal olaraq məskunlaşması problemləri aparılır. Ağdam və Füzuli şəhərlərinin mərkəzi hissələri sürətlə formalaşmaqdadır, şəhər infrastrukturu yaradılır və yaşayış massivləri istismara verilir.

Ümumiyyətlə, postkonflikt ərazilərdə davamlı inkişafın təmin olunması strateji istiqamət kimi qarşıya qoyulmuşdur. Məqsəd regionun gücləndirilməsi və ümumilikdə Azərbaycanın müstəqil dövlət kimi rolunun ən yüksək səviyyəyə qaldırılmasıdır. Professor E.A.Quliyev yazır ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının formalaşması və sosial-iqtisadi inkişafının müasir vəzifələrinin müəyyənləşdirilməsi və reallaşdırılması dövrümüzün vacib prioritetlərindədir [8, s. 165]. Bu baxımdan qeyd olunan iqtisadi rayonların intensiv bərpa olunması problemlərinin araşdırılması və həlli yollarının müəyyənləşdirilməsi vacib məsələlər kimi diqqət çəkir.

Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişaf problemlərinin tədqiqi

Qeyd edək ki, hazırda Azərbaycanda milli iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi və ümumilikdə iqtisadiyyatın neftqaz amilindən asılılığının azaldılması prosesləri gedir. Yeni iqtisadi artım mənbələrinin formalaşdırılması müstəsna əhəmiyyət kəsb edir. Əməkdar Elm Xadimi, professor B.X.Ataşov qeyd edir ki, Azərbaycan iqtisadiyyatı uzun illər ərzində neftqaz sektoruna əsaslanmışdır. Lakin neft qiymətlərinin beynəlxalq bazarlarda dəyişkənliyi və neft ehtiyatlarının məhdudluğu fonunda iqtisadiyyatın diversifikasiyası, yəni qeyri-neftqaz sektorunun inkişafı prioritet məsələyə çevrilmişdir [2]**.** Qeyd olunan proseslərdə ölkədə mövcud resurslardan, o cümlədən regionların potensialından məhsuldar istifadə olunması strateji əhəmiyyət kəsb edir. Bu nöqteyinəzərdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf problemlərinin həll edilməsi məsələləri aktual olaraq ön plana çıxmışdır. Məlumdur ki, 27 sentyabr 2020-ci ildən başlayan 44 günlük Böyük Qarabağ Zəfəri iqtisadi rayonların fəalliyyəti ilə bağlı yeni reallıqlar formalaşdırmışdır. Digər tərəfdən, 30-ilə yaxın Azərbaycan özünün bir neçə iqtisadi rayonunun, yəni işğal altında qalan ərazilərdəki iqtisadi rayonlarının resuslarından istifadə edə bilməmişdi. Postkonflikt ərazilərdəki bu resuslardan istifadə edə bilməmiş, həm də 1 milyona yaxın məcburi köçkünün müvəqqəti şəraitini qurmaq, müvəqqəti şəhərciklər yaratmaq, yaşayış kompleksləri, yaşayış massivləri salmaq və eyni zamanda, onların sosial müdafiəsini təmin etmək məcburi xarakter daşımışdır [13].

Bunlarla bərabər, məhz aqrar sahədə pambıqçılığın inkişafı həm aqrar sahənin emal kompleksinin, emal potensialının artmasına, həm də əhalinin çox mühüm məhsullar olan tekstil məhsullarına olan tələbatının ödənilməsində yerli brendlərin formalaşdırılmasına və inkişaf etdirilməsinə imkan yaradar. Digər vacib bir məsələ kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və onların emalı ilə bağlı olan problemlərdir [11]. Regionların inkişafı nöqteyi-nəzərindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da spesifik cəhətləri diqqət çəkir. Belə ki, hər bir ölkənin regionlarının özünəməxsus resurs potensialı vardır. Regional sistem və onun daxili tərkib hissələri – iqtisadi rayonlar, milli dövlət regionları, inzibati-ərazi vahidləri sabit deyil, dəyişkəndir. İqtisadi rayonlarda mövcud olan nailiyyətlərin və çatışmazlıqların tarixi səbəblərini aydın görmək, müasir problemlərini düzgün başa düşmək və onun həlli yollarını tapmaq imkanı formalaşdırılmalıdır [9]. Bunlarla bərabər, inkişaf etməkdə olan ölkələrdə aqrar iqtisadiyyatın böhranlı vəziyyətdən çıxarılması, onun sahələrinin davamlı fəaliyyəti, yerli ərzaq məhsullarının rəqabət qabiliyyətinin təmin edilməsi innovasiya proseslərinin fəallaşmasını şərtləndirir. Müasir dövrdə aqrar sahədə sosial-iqtisadi vəziyyətin təhlili onu göstərir ki, burada hələ də maddi və mənəvi cəhətdən köhnəlmiş texnologiyalardan, bitki sortlarından, istehsalın və idarəetmənin qeyri-mükəmməl metodlarından və formalarından istifadə üstünlük təşkil edir. Eyni zamanda, tətbiqi fəaliyyətin sınaqdan çıxarılmış mexanizmləri, bazar iqtisadiyyatının müvafiq elmi-texniki informasiya sistemləri, elmi müəssisələrlə tətbiq strukturları arasında sınaqdan çıxarılmış səmərəli qarşılıqlı fəaliyyət mexanizmi həddən artıq zəif səviyyədədir [1, s. 479].

Digər tərəfdən, Azərbaycanda aqrar sahənin inkişafına nail olmaq mümkündür və bunun üçün mövcud problemlərin sistemli şəkildə həll edilməsi mexanizmləri tətbiq olunmalıdır. Belə ki, aqrar sahənin müasir texnologiyalara və idarəetmə funksiyalarına əsaslanan inkişafı ölkəmizin iqtisadi rayonlarının potensialının reallaşdırılmasında, regional iqtisadiyyatın strukturunun şaxələndirilməsində, rəqabətqabiliyyətli məhsulların istehsalında mühüm rol oynaya bilər. Həmçinin bu kimi proseslər ölkəmizin iqtisadi rayonlarının inkişafına, əhalinin ən zəruri ərzaq məhsullarına tələba-

tının ödənilməsinə və ölkənin ərzaq təhlükəsizliyinə əlavə stimul verər. Eyni zamanda, səmərəli təşkilati-iqtisadi tədbirlərin tətbiqi Elmi Texniki tərəqqinin və yüksək texnologiyaların tətbiqi ilə birlikdə ölkəmizin iqtisadi rayonlarında aqrar sahənin inkişafına zəmin yaradan əsaslardandır. Müasir dövrdə beynəlxalq səviyyədə iqtisadiyyatın inkişafı üçün innovasiyalardan istifadəyə əsaslanan yeni paradiqma diqqət çəkir. Ölkəmizin iqtisadi rayonlarında aqrar sahənin reinteqrasiyası zamanı bu proseslər nəzərdən qaçırıla bilməz və təkcə aqrar sahədə deyil, milli iqtisadiyyatın bütün sahələrində innovasiya proseslərinin intensivləşməsini təmin edə bilər. Əlavə olaraq aqrar sahə iqtisadiyyatın strateji əhəmiyyətli sahəsi olmaqla müasir meyillərə cavab verən keyfiyyətcə yeni texniki-texnoloji baza üzərində inkişaf etdirilməlidir [3, s.77]. Bunlarla yanaşı, postkonflikt ərazilərdə yeni yaradılmış regionlarda reinteqrasiya müxtəlif səviyyələrdə aqrar-sənaye sistemlərinin inkişafında obyektiv qanunauyğunluqdur.

Qeyd edək ki, aqrar sahənin innovativ inkişafında dövlətin rolu innovasiya siyasətinin istiqamətləri ilə müəyyənləşdirilir ki, həmin istiqamətlərin ən əsaslarına aiddir: innovasiya yönümlü inkişafın hüquqi baxımdan tənzimlənməsi və onun iştirakçılarının maraqlarının qorunması; innovasiyaların yaradılması və inkişafına dəstəyin göstərilməsi; prioritet inkişafın müəyyənləşdirilməsi və reallaşdırılması; əməkdaşlığın səmərəli formalarının inkişaf etdirilməsi, təşkilati-iqtisadi strukturların formalaşdırılması; aqrar sahə müəssisələri üçün innovasiyalar sahəsində kadr hazırlığı; aqrar sahə müəssisələrinin maddi-texniki bazasının prioritet istiqamətlərdə inkişaf etdirilməsi; innovasiyalar sahəsində əməkdaşlığın genişləndirilməsi və inkişafı [6, s.80]. Digər tərəfdən, dövlətin aqrar siyasətini reallaşdırmaq məqsədilə orta və uzunmüddətli perspektivdə onun əsas sahələrini əsaslandırmaq vacibdir. Belə ki, əsaslandırma həm mövcud vəziyyətin qiymətləndirilməsini, həm də onun gələcəkdə inkişaf imkanlarını özündə əks etdirir. Bu halda mövcud vəziyyətin qiymətləndirilməsi obyektin inkişafının güclü və zəif tərəflərini müəyyənləşdirməyə, istər sektor komplekslərinin, istərsə də təsərrüfat sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasının mümkün olduğu şərtləri nəzərdən keçirməyə şərait yaradır. Perspektivdə isə inkişaf imkanlarının müəyyənləşdirilməsi perspektivlərin qiymətləndirilməsi və proqnozların verilməsindən ibarətdir. Eyni zamanda, kənd təsərrüfatı istehsalının inkişafı üzrə hədəflərə - ərzaq təhlükəsizliyinin təminatına, ixrac potensialının, istehsalçıların gəlirliliyinin artırılmasına, əhalinin yaşayışının yaxşılaşdırılmasına nail olmaq baxımından zəruri tədbirlərin görülməsinə imkan yaradır. Kənd təsərrüfatı istehsalının inkişafı məqsədlərinə nail olmaq mövcud ehtiyatlardan istifadənin səmərəliliyindən və s. bilavasitə asılıdır [14].

Müasir dövrdə Azərbaycanda aqrar siyasətin əsas istiqamətlərindən və aqrar sahənin əsas problemlərindən biri onun işğaldan azad edilmiş ərazilərdə inkişaf etdirilməsidir. Qeyd olunan problemin həlli məqsədilə həmin ərazilərin aqrar sahə müəssisələrinin əsas problemləri, onların yaranma mənbələri və həlli perspektivləri təhlil olunmalıdır ki, bu da kənd təsərrüfatının inkişafı baxımından səmərəli proqram hazırlamağa imkan verəcəkdir. Postkonflikt ərazilərdə aqrar sahənin mövcud vəziyyətinin, inkişaf etdirilməsi problemlərinin və inkişaf perspektivlərinin öyrənilməsi zərurəti yaranmışdır.

Hazırda ölkəmizdə aqrar sahənin inkişafı fundamental və strateji xarakter daşıyır. Aqrar sektorun kompleks və sistemli inkişafı qlobal səviyyədə ərzaq təhlükəsizliyinin gücləndirilməsi problemlərinin həlli baxımından böyük önəm daşıyır. Ölkəmizin aqrar bölməsində aparılan struktur dəyişiklikləri, idarəetmənin təkmilləşdirilməsi tədbirləri diqqətə layiqdir. Aqrar sektorun müasir qlobal çağırışlara uyğun inkişafı üçün ilk öncə onun strukturu mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmalı və səmərəlilik problemlərinin həlli yolları müəyyənləşdirilməlidir. Qeyd olunan problemlər işğaldan azad edilmiş ərazilərdə fundamental xarakter daşıyır və həmin amillər nəzərə alınmaqla, postkonflikt ərazilərdə aqrar sahənin idarə olunması innovativ texnologiyalara əsaslanmalıdır. Postkonflikt ərazilərdə yeni texnologiyaların tətbiqinə, innovativ sistemin tətbiqinə ciddi diqqət yetirməyə, intellektual mülkiyyətin formalaşmasına şərait yaratmağa çalışmaq lazımdır [12]. Digər tərəfdən, postkonflikt ərazilərdə milli innovasiya sisteminin formalaşdırılması məqsədilə yeni texnologiya, ideya və bilikləri istehsal edən müəssisələr şəbəkəsi yaradılmalı, yeni istehsal və

xidmət müəssisələrinin fəaliyyətinin maliyyələşdirilməsi təmin edilməli, elmi və elmi-xidmət müəssisələrinin fəaliyyəti və onlar arasında münasibətlər tənzimlənməlidir. Qarabağın və Şərqi Zəngəzurun inkişafını təmin etmək üçün burada reallaşdırılan iqtisadi proseslərin idarə olunmasına dövlət müdaxiləsi vacibdir. Bu baxımdan, dövlət həmin iqtisadi rayonların ərazilərinin iqtisadiyyatını dirçəltmək üçün ən yaxşı variantlardan istifadə etməlidir və bu məqsədlə xarici ölkələrin təcrübəsi öyrənilməlidir [7].

Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafının aktual problemlərinin həlli yolları

Qeyd edək ki, Qarabağın bərpası ən müasir texnologiya və layihələrlə reallaşdırılır. Bölgədəki yaşayış məntəqələrində “ağıllı kənd”, “ağıllı şəhər”lər yaradılır ki, bunların da ilkləri artıq Zəngilan rayonunun Ağalı kəndində istifadəyə verilmişdir. “Ağıllı kənd” və “ağıllı şəhər”lər özündə istehsal, “ağıllı kənd təsərrüfatı”, sosial xidmət, yaşayış, alternativ və bərpa olunan enerji sahələrini birləşdirir. “Ağıllı şəhər”lərdə insanların normal yaşayışı ənənəvi şəhərlərdə olduğu kimi nəqliyyat sahəsindən əsaslı surətdə asılıdır. Yeni qurulan şəhərlərdə ərazinin qədimliyi və tarixiliyi qorunmalıdır. “Ağıllı şəhər”lər böyük həcmdə informasiyanın təhlili və işlənməsini tələb edir ki, bu da regionda güclü rabitə və internet sisteminin qurulmasını zərurətə çevirir.

Bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının davamlı inkişafı məqsədilə iqtisadi fəaliyyət sahələrinin modelləşdirilməsi və sahibkarlığın inkişafı dövlət siyasətinin əsas tərkib hissələrindəndir. Eyni zamanda, Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərindən həmin iqtisadi rayonların inkişafı məqsədilə səmərəli istifadə üzrə prioritet istiqamətlər müəyyənləşdirilib və bu sahələrə maraqlı və potensial investorların cəlb edilməsi əsas vəzifələrdəndir. Perspektivdə yeni yaradılan bu iqtisadi rayonlarda yüksək texnologiya əsaslı sahələrin inkişafı baxımından daha səmərəli mexanizmlərin hazırlanması mümkün olacaqdır. Bu kimi mexanizmlərə çevik və məhsuldar texnologiyalara əsaslanan istehsal və emal sahələrinin yaradılması və səmərəli infrastruktur sahələrinin fəaliyyətinin təşkili aiddir. Qeyd olunanlara əsasən deyə bilərik ki, yeni bölgü ilə müəyyənləşdirilən iqtisadi rayonlarda inkişafın daha çevik və məhsuldar olacağını gözləmək mümkündür. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzurun regionun inkişafında və ümumilikdə milli iqtisadiyyatımızın gücləndirilməsində rolunun artırılması üçün həmin iqtisadi rayonlarda fəaliyyət göstərəcək sahibkarların stimullaşdırılması mexanizmləri, biznes mühitinin yaxşılaşdırılmasına daha münbit şərait yaradılması məqsədilə maliyyə, gömrük, vergi və kommunal xidmətlər sahəsində güzəştlər sistemi tətbiq olunur. Bizə görə səmərəli fəaliyyət istiqamətləri Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişafını təmin edə və onu həmin iqtisadi rayonların həyatında səmərəli amilə çevirə bilər.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurdakı resurs ehtiyatlarından səmərəli istifadə, onların istehsal prosesinə cəlb edilməsi, eləcə də bu iqtisadi rayonların ərazilərinin bərpası böyük həcmdə investisiyaların yatırılmasını şərtləndirir. Bu baxımdan son illərdə hər il 4 milyard manata qədər vəsait ayrılmışdır. Zənnimizcə, bu vəsait kifayət deyil, belə ki, ölkənin inkişaf prioritetlərinin uğurla reallaşdırılması, müasir qloballaşma proseslərinin tələblərinin cavab vermək, bunun əsasında Qarabağın və Şərqi Zəngəzurun innovasiya yönümlü davamlı və inklüziv inkişafı gələcək illərdə təmin ediləcəkdir. Hesab edirik ki, bunlar üçün hər il təxminən 7 milyard manata qədər vəsaitin yönəldilməsi postkonflikt ərazilərdə bərpa işlərini daha intensiv səviyyəyə qaldırar. Bu proseslərdə dövlət büdcəsindən ayrılan vəsaitlərlə bərabər, dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində biznes və sahibkarlıq subyektlərinin kapitalının postkonflikt ərazilərin bərpa layihələrinə cəlb edilməsi tədbirləri daha təsirli şəkildə təmin edilməlidir.

Ümumilikdə aqrar sahənin inkişafı ölkənin bütün rayonlarını, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunu əhatə etməlidir. Şərqi Zəngəzurda aqrar sahənin problemlərinin, onun inkişaf perspektivlərinin öyrənilməsinin aktuallığı onun ölkə iqtisadiyyatına gələcək töhfəsi ilə bağlıdır. Şərqi Zəngəzurda aqrar sahənin inkişafı ilə bağlı məsələlərin öyrənilməsi aqrar sahibkarlığın səmərəliliyinin yüksəldilməsində böyük önəm daşıyır. Aqrar sahənin inkişafı baxımından Qarabağ və Şərqi Zəngəzurda yüksək potensial olduğu məlumdur. Burada kifayət qədər resurs, o cümlədən heyvandarlığın və bitkiçiliyin inkişafı üçün resurslar var. Belə ki, Laçın və Kəlbəcər rayonları kifayət

qədər otlaq və yem ehtiyatlarına malikdir. Bütövlükdə bu iqtisadi rayonların XİZ vasitəsilə heyvandarlıq məhsulları istehsalının təşkili və aqrar sahənin inkişafı baxımından böyük perspektivləri vardır [4]. Qarabağ və Şərqi Zəngəzurda tez bir vaxtda yenidənqurma işlərinin reallaşdırılması ilə bərabər, “yaşıl enerji” konsepsiyası əsasında işlərin görülməsi də əsas prioritet kimi qarşıda durur. Azərbaycanda Qarabağ və Şərqi Zəngəzurda “Yaşıl Enerji” zonasının yaradılmasına böyük önəm verilməkdədir. Belə ki, müxtəlif iqtisadi rayonlarda, xüsusilə yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətinin, kənd yerlərinin inkişafı və sabitləşdirmə məsələləri ilə aqrar sahənin inkişafı gücləndirilir.

Ölkəmizin iqtisadi rayonlarında, o cümlədən, Qarabağ və Şərqi Zəngəzurda aqrar sahəni inkişaf etdirmək və reinteqrasiya proseslərini səmərəli şəkildə reallaşdırmaq üçün lazımi tədbirlər həyata keçirilir. Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzur bölgələri yarandığı andan özünəməxsus xüsusiyyətləri, təbii sərvətləri və zəngin tarixi-mədəni irsi, məşğulluq formaları ilə diqqət çəkir. Bu iqtisadi rayonlar güclü iqtisadi potensiala malikdir və bu potensialları əsas götürməklə iqtisadi rayonlaşdırılma prinsiplərinin müasir reallıqlara uyğunlaşdırılması tələb olunur. Digər tərəfdən, dövlət başçısının iqtisadi rayonların yeni bölgüsü ilə bağlı imzaladığı fərmanı bu məsələləri həll etməklə, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yüksəldəcək, Qarabağ və Şərqi Zəngəzurun ərazilərinin milli iqtisadiyyatımıza reinteqrasiyası prosesini sürətləndirəcək, proqnozlaşdırılan işlərin planlı şəkildə təşkilinə şəraiti təmin edəcəkdir [5].

Qeyd edək ki, təkcə Qarabağın deyil, Şərqi Zəngəzurun da dirçəldilməsi və inkişaf etdirilməsi əsas prioritetlərdəndir. Şərqi Zəngəzur Cəbrayıl, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarını əhatə edir. Bu iqtisadi rayon sırf kənd təsərrüfatı rayonu olmaqla ölkənin mühüm heyvandarlıq bölgəsi olmuşdur. Qoyunçuluq, maldarlıq, arıçılıq əsas ixtisaslaşmış sahələr kimi formalaşmışdır. Meyvəçilik, tərəvəzçilik əsasən Qubadlı və Zəngilan rayonlarında inkişaf etmişdir. Odur ki, Şərqi Zəngəzurda heyvandarlıq təsərrüfatı yenidən qurulmalı, heyvandarlıq təsərrüfatının inkişafı üçün güzəştli kredilər verilməli və sahibkarlıq subyektlərinin vergilərdən azad olunması məsələlərinə diqqət yetirilməlidir.

Bunlarla bərabər, Kəlbəcər rayonunun iqtisadiyyatının əsasını işğaldan əvvəl heyvandarlıq, üzümçülük və baramaçılıq təşkil edirdi. Son illər 60 min tondan yuxarı üzüm istehsal olunurdu. Kənd təsərrüfatında əsasən əkinçilik və heyvandarlıq inkişaf edib. 1990-cı ilədək olan dövrdə buradakı İstisu sanatoriyasında 1 ilə 50 min nəfər müalicə alırdı ki, bu da kiçik bir məkan üçün çox böyük göstərici demək idi. Həmçinin Kəlbəcərdə içməli mineral su ehtiyatları boldur. Bu suların qablaşdırılaraq satılması böyük maliyyə vəsaitlərinin qazanılmasına gətirib çıxara bilər.

Eyni zamanda, Laçın rayonunun iqtisadi əsasını kənd təsərrüfatı, o cümlədən heyvandarlıq təşkil edib. İşğaldan sonra da maldarlıq, qoyunçuluq və arıçılıq təsərrüfatlarını yaratmaq və genişləndirmək hesabına həmin rayonu iqtisadi inkişafda aparıcı bölgələrdən birinə çevirmək olar. Bu ərazidə eyni zamanda xalq təbabəti üçün əvəzsiz sayılan dərman bitkiləri bitir ki, bu da gələcəkdə əlavə gəlir mənbəyinə çevrilə bilər. Qubadlı rayonunda baramaçılıq, taxılçılıq, üzümçülük, tütünçülük və heyvandarlıq üstünlük təşkil edirdi. Bu ərazidə 1520 ton tütün, 12 min tona yaxın yem, 133 ton üzüm, 15 min tona qədər taxıl məhsulları, 1200 ton ət, 52 ton barama, 2600 ton süd məhsulları, 10 ton yun istehsal olunurdu. XX əsrin əvvəllərindən 60-cı illərədək rayonda çəltik becərilmişdir. Hazırkı dövrdə düyüyə olan tələbatı nəzərə alaraq bu sahənin inkişafı məqsədyönlü sayıla bilər.

Həmçinin, Zəngilan rayonunun ərazisində 7204 ha sahə təsərrüfat dövriyyəsinə cəlb olunmuşdur. Burada 56 ha sahədə kartof, 4000 ha sahədə taxıl, 41 ha sahədə şəkər çuğunduru, 33 ha sahədə tərəvəz, 307 ha sahədə tütün, 10 ha sahədə bostan bitkiləri əkilmiş, 41 ha meyvə və giləmeyvə bağları, 2047 ha isə üzümlüklər salınmışdır. Dənli bitkilər istehsalı il ərzində orta hesabla 3180, bostan məhsulları 30, barama istehsalı 80, kartof istehsalı 20, tütün istehsalı 1700, üzüm istehsalı isə 18000 ton təşkil etmişdir. Bu rayonun iqlim imkanları parfümeriya sənayesi üçün lazım olan ətirli çöl bitkilərinin əkilməsinə çox yararlıdır. Məsələn, təkcə lavanda plantasiyalarının salınması ilə xeyli lavanda yağı əldə etmək mümkündür. Müasir təcrübədə 1 ha lavanda sahəsindən 50-60

kq yağ əldə etmək mümkündür. Dünya bazarında 1kq lavanda yağının orta qiyməti 100 dollar olduğundan böyük gəlirlərin əldə edilməsi realdır.

Qeyd edək ki, işğaldan əvvəlki dövrdə Zəngilan rayonunun Bəsitçay qoruğunda Şərq çinarları qorunurdu. Bu qoruq da ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Bu çinarların gözəl və hamar gövdələri vardır. İndi bu qoruqdan əsər - əlamət qalmamışdır. Regionda çinarlardan başqa çoxlu nadir ağac növləri də qırılaraq Ermənistana daşınmışdır. 30 ilə yaxin işğal altında qalan ərazilərdəki ağaclar qırılaraq Ermənistanda yanacaq kimi istifadə edilmişdir. Fosforlu bombalardan istifadə edilməsi biomüxtəlifliyə böyük ziyan vurmuşdur. Beləliklə, bioturizmin təşkilinə əsaslı maneələr yaradılmışdır. Biomüxtəliflik bərpa olunan rekreasiya ehtiyatlarındandır. İnanmaq lazımdır ki, bu ehtiyatlar müvafiq qurumlar tərəfindən bərpa olunacaq, bioturizmin inkişafına imkan yaranacaqdır. Cəbrayıl rayonu ərazisinin iqtisadiyyatının əsasını taxılçılıq, maldarlıq, bostançılıq təşkil edirdi. İşğaldan əvvəl bu rayonda 60 min tondan çox müxtəlif növ üzüm yetişdirilirdi. Rayon ərazisində 8 sənaye müəssisəsi var idi. Cəbrayıl rayonun əraziləri taxılçılıq və bostan məhsulları üçün çox əlverişlidir. Bu ərazidə ənənəvi maldarlıq və qoyunçuluq təsərrüfatları da yaratmaq mümkündür.

Nəticə

Hesab edirik ki, aqrar sahənin inkişafı baxımından Qarabağ və Şərqi Zəngəzurun mövcud potensialı yaxın gələcəkdə daha yaxşı nəticələr əldə etməyə imkan verər. İqtisadi rayonların yenidən qurulması, onların sosial-iqtisadi və kompleks inkişafının təmin edilməsi yaxın gələcəkdə ölkənin digər iqtisadi rayonlarında da idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə və əlavə tədbirlərin görülməsinə ciddi əsaslar yaradacaqdır:

- Qeyd olunan prosesləri dərinləşdirmək məqsədilə Azərbaycanın iqtisadi rayonlarında mühüm ərzaq məhsullarının məhsuldar sortlarının yetişdirilməsi, seleksiya işlərinin davam etdirilməsi, həmin sahədə qabaqcıl dünya təcrübəsinin tədqiqi, öyrənilməsi və tətbiqi zəruridir;
- İqtisadi rayonlarda təbii sərvətlərdən və torpaq fondlarından səmərəli istifadə etməklə aqrar sahənin fəaliyyətini müasirliyin tələblərinə uyğunlaşdırmaq üçün ərazilərin resurs potensialı və xüsusilə aqrar sahənin inkişafı üçün mövcud imkan və ehtiyatlar diqqətlə öyrənilməlidir;
- Məqsədli dövlət proqramları hazırlanmalı və kompleks tədbirlər görülməli, ölkəmizin iqtisadi rayonlarında mühüm ərzaq məhsulu olan buğdanın istehsal sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması problemlərinə kompleks və ardıcıl yanaşma təmin edilməlidir;
- Müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafında qabaqcıl beynəlxalq təcrübə qiymətləndirilməli və yüksək texnologiyaların tətbiqi prioritet olmalı, yaxın gələcəkdə yüksək texnologiyalara əsaslanan emal üçün kənd təsərrüfatı holdinqləri yaradılmalı və ölkəmizdə çoxfunksiyalı şəbəkə emal müəssisələri kompleksi istifadəyə verilməlidir və s.

Hesab edirik ki, yuxarıda göstərilən potensialların reallaşdırılması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafına yeni təkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı 2017, “Kooperasiya” nəşriyyatı, – 536 s.
2. Ataşov, B.X. Azərbaycan iqtisadiyyatının qeyri-neftqaz sektorunun müasir durumu və inkişaf perspektivləri. Monoqrafiya. – Bakı: Kooperasiya nəşriyyatı, – 2026. – 336 s.
3. Babayeva V.M. Aqrar sahənin innovasiyalı inkişafının prioritet istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.77-81.
4. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.
5. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, sentyabr, 2021, №4(64), s.67-72.
6. Hacıyeva, Z.E., Osmanov İ.O. Aqrar sənaye müəssisələrinin innovativ inkişafında dövlətin

rolu / Z. E. Hacıyeva, İ. O. Osmanov // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2020. – cild. 16, №. 4. – s. 79-82.
7. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin perspektiv inkişaf istiqamətləri. Audit, 2021, 1 (31), s.49-59.
8. Quliyev, E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. – Bakı: Kooperasiya nəşriyyatı, – 2023. – 320 s.
9. Nuriyev Ə.X. Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri (tarix və müasirlik). Bakı: Savad, 2021, – 376 s.
10. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə V Cild. Bakı 2022, – 856 s.
11. Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34). – s. 38-44.
12. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // “Вопросы истории”, Москва, 2022, № 6, Səh. 148-155. https://elibrary.ru/item.asp?id=48808624 (Web of science; Scopus).
13. Алиев, Ш.Т., Меликова, Л.А. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий / IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков»./ Россия, Москва, 28 марта 2022 года- с. 277-286.
14. Потапов, А.П. Оценка перспектив формирования и использования ресурсного потенциала аграрного производства / А. П. Потапов //– 2021. – № 1. – С. 160-163.

Эльдениз Мазахир оглы Магеррамов
доктор философии по экономике,
доцент Азербайджанского Университета Кооперации
E-mail: emeherremov79@mail.ru

Актуальные проблемы развития сельского хозяйства в Карабахе и Восточном Зангазуре

Резюме

Цель исследования – изучение актуальных проблем развития аграрного сектора в Карабахе и Восточном Зангезуре и определение путей их решения. Рассматриваются и систематизируются проблемы развития аграрного сектора в постконфликтных районах. Приводятся экономические аспекты и приоритеты региональной политики страны. Анализируются постулаты развития аграрного сектора в постконфликтных районах и проводится полемика о путях решения существующих проблем.

В методологии исследования использовались методы абстракции, анализа, синтеза и обобщения. При этом учитывались научные работы группы ученых, проводивших исследования проблем развития аграрного сектора в Карабахском и Восточно-Зангезурском экономических регионах.

С точки зрения прикладной значимости исследования следует отметить, что обобщенные итоговые положения и результаты могут быть использованы при подготовке и реализации практических механизмов действий по решению проблем развития аграрного сектора в Карабахском и Восточно-Зангезурском регионах.

Что касается результатов исследования, мы считаем, что предложенные в статье меры могут быть использованы для подготовки и реализации более эффективных мер по решению проблем развития агропромышленного сектора в постконфликтных районах.

Оригинальность и научная новизна исследования заключается прежде всего в обосновании необходимости более интенсивного развития агропромышленного сектора в Карабахе и Восточном Зангезуре в современный период с помощью научных и практических

аргументов. С этой целью был проанализирован ресурсный потенциал, имеющийся в постконфликтных районах, и оценены возможности ускорения развития агропромышленного сектора. Были предложены направления интенсификации развития агропромышленного сектора на основе высоких технологий, включая «умные» технологии.

Ключевые слова: Азербайджан, Карабах, Восточный Зангезур, экономические регионы, аграрный сектор, проблемы развития аграрного сектора, перспективы развития аграрного сектора.

Eldaniz Mazahir Maharramov
PhD in economics, Associate professor of
Azerbaijan University of Cooperation,
E-mail: emeherremov79@mail.ru

Current problems of agrıcultural development ın Karabakh and Eastern Zangazur

Summary

The purpose of the research is to investigate the current problems of the development of the agrarian sector in Karabakh and East Zangezur and to identify ways to solve them. The problems of the development of the agrarian sector in post-conflict areas are explained and systematized. The economic aspects and priorities of the country's regional policy are given. The postulates of the development of the agrarian sector in post-conflict areas are analyzed and a polemic is conducted on the ways to solve the existing problems.

The research methodology used abstraction, analysis, synthesis and generalization methods. At the same time, the scientific works of a group of scientists who conducted research on the problems of the development of the agrarian sector in the Karabakh and East Zangezur economic regions were taken into account.

In terms of the applied significance of the research, it should be noted that the generalized final provisions and results are likely to be used in the preparation and implementation of practical action mechanisms to solve the problems of the development of the agrarian sector in Karabakh and East Zangezur**.**

In terms of the results of the study, we believe that the proposals given in the article can be used to prepare and implement more effective measures on the problems of the development of the agricultural sector in post-conflict areas.

The originality and scientific novelty of the study is primarily the justification of the need for more intensive development of the agricultural sector in Karabakh and East Zangezur in the modern period with scientific and practical arguments. For this purpose, the resource potential available in the post-conflict areas was analyzed and the possibilities for accelerating the development of the agricultural sector were assessed. Proposals were made on the directions of intensifying the development of the agricultural sector based on high technologies, including "smart" technologies.

Key words: Azerbaijan, Karabakh, East Zangezur, economic regions, agrarian sector, problems of development of the agrarian sector, prospects of development of the agrarian sector.